**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

11 avqust 2023-cü il
№30 (9038)

www.muallim.edu.az
muallim@edu.gov.az


## BU SAYIMIZDA

### Samuxda Sərkar kənd uşaq musiqi məktəbinin yeni binası istifadəyə verilib



Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samuxda Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin yeni binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, Sərkar kənd musiqi məktəbi 2002-ci ildən 1935-ci ildə inşa olunmuş kolxoza aid birmərtəbəli tikilidə fəaliyyət göstərib.

səh.2

### Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alacaq gənclər



*Böyük Britaniyanın Qlazqo Universitetində təhsil alacaq Şəhla Abbaszadə:* "Uşaqlıqdan xarici ölkələrin nüfuzlu universitetlərinin birində təhsil almaq ən böyük arzum olub. Eşidəndə ki, dövlət gənclərə belə bir fürsət yaradır, mən də iştirak etmək qərarına gəldim. Müsahibədən uğurla keçdiyimi biləndə çox sevindim və qürurlandım. Artıq sentyabrda Qlazqo Universitetində "İnklüziv təhsil: araşdırma, siyasət və təcrübə" ixtisası üzrə təhsil alacağam. Xaricdəki təhsilimi uğurla başa vurub ölkəmizdə müəllim kimi fəaliyyətimi davam etdirmək istəyirəm".

səh.3

### Suda boğulma təhlükəsinin qarşısını necə almalı?



Suda boğulma təsadüfi ölüm hallarının əsas səbəblərindən biridir. Statistikaya əsasən, hər il dünyada 150000-dən çox bu növ ölüm hallarına rast gəlinir. Kişilər arasında boğulma riski qadınlarla müqayisədə 6 dəfə çoxdur. Dəniz sahili, göllər, çaylar, kanallar, suvarma qurğuları suda boğulma hadisələrinin baş verdiyi əsas yerlərdir. Bu halların qarşısının alınması ilə bağlı insanlar arasında mütəmadi maarifləndirmə işləri aparılmalıdır. Ekspertlər hesab edirlər ki, boğulma hallarının əsas səbəblərindən biri insanların ehtiyatsızlığıdır.

səh.6

# Təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürü

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına bu təhsil ocağında yaradılan şərait barədə məlumat verildi.

Qeyd edək ki, Şəmkir şəhərinin mərkəzində yerləşən, 1958-ci ildə tikilmiş Məhəmməd Füzuli adına tam orta məktəb-liseyin köhnə binasının müasir tələblərə cavab verməməsi, 600 şagird yerlik məktəbdə 1500 şagirdin təhsil alması və binanın qəzalı vəziyyətdə olması ilə əlaqədar yeni binanın tikintisinə zərurət yaranmışdı. Azərbaycan Prezidentinin "Şəmkir şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 mart tarixli Sərəncamının icrası ilə əlaqədar məktəbin binası yenidən inşa olunub.

⇨Ardı səh.2



## Prezident İlham Əliyev Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışında iştirak edib

# Müəllim olmaq istəyənlər

## MİQ-in müsahibə mərhələsi başladı

2023-2024-cü tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqə sona yaxınlaşır. Artıq iki gündür müsahibə mərhələsi başlayıb. Bu mərhələyə 5660 nəfər dəvət edilib.

Müsahibələrin start götürdüyü gün - avqustun 9-da "Azərbaycan müəllimi" qəzetinin əməkdaşı da prosesi yaxından izləyib.

Azərbaycan Texniki Universitetinin İdman Sarayı necə həyəcanlar görüb... Axı, müəllimlərin işə qəbulu müsabiqəsinin ilk günlərindən müəllimlik üçün yarışanlara meydan, qaliblərin qətiyyətinə, özünü təsdiqetmə bacarığına səhnə olub. Burada yenə həyəcandolu anlar yaşanır.

⇨Ardı səh.6

# Ötən ay BŞTİ-yə 18538 müraciət daxil olub




İyul ayı ərzində Bakı Şəhəri üzrə Təhsil İdarəsinə (BŞTİ) 18538 müraciət daxil olub. Daxil olan müraciətlərin əksəriyyəti cavablandırılıb və operativ şəkildə həll olunub.

Statistikaya əsasən, Çağrı Mərkəzinə (146-1 nömrəli) 12334 zəng və Vətəndaşların Qəbulu Mərkəzinə 3633 müraciət daxil olub.

BŞTİ-yə 2096 sənəd (vətəndaşlar tərəfindən 425 ərizə, Elm və Təhsil Nazirliyindən 259, digər qurumlardan 154, tabelikdə olan təhsil müəssisələrindən 355 məktub və 903 kadr ərizəsi) daxil olub və qeydiyyata alınıb. Həmçinin 475 elektron müraciətə baxılıb.

Daxil olan müraciətlər müxtəlif məsələlərin tənzimlənmə qaydalarının öyrənilməsi, məktəbəqədər təhsil müəssisələrinə qəbul, müəllimlərin əmək müqaviləsinin müddətinin uzadılması, işə qəbul və digər məsələləri əhatə edir.

# 554 şagird informatika təmayüllü siniflərdə təhsil alacaq




**2023-2024-cü tədris ilində "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində informatika təmayüllü 10-cu siniflərdə təhsil almaq istəyən 9-cu sinif şagirdləri üçün imtahan keçirilib. Ümumilikdə 554 şagird uğurlu nəticə göstərib.**

**Növbəti tədris ilində "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində informatika təmayüllü 10-cu siniflərin sayının artırılması və 40 məktəbdə həyata keçirilməsi planlaşdırılır.**

**Qeyd edək ki, 2021-2022-ci tədris ilində pilot layihə kimi 5 məktəbdə informatika təmayüllü 10-cu siniflərə start verilib. 2022-2023-cü tədris ilində isə pilot layihə 10-cu siniflər üzrə 710 şagird olmaqla 4 şəhər və 23 məktəbi əhatə edib. Layihə üzrə həftədə 5 saat informatika fənni tədris olunur.**

# Dövlət qayğısı, yeni imkan

Azərbaycanda peşə təhsilinin inkişafına istiqamətlənmiş bir sıra tədbirlər həyata keçirilir. Bu sahədə atılan mühüm addımlardan biri də bu günlərdə, konkret desək, avqustun 5-də Baş nazir Əli Əsədovun imzaladığı qərarla reallaşıb. Belə ki, Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Nazirlər Kabineti "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda dəyişiklik edib.

⇨Ardı səh.6

**Təhsil tələbə kreditindən yüksək texniki peşə təhsil səviyyəsi ilə yanaşı, texniki peşə təhsili səviyyəsində təhsil alan tələbələr də yararlanacaqlar**



# Təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürü





## Prezident İlham Əliyev Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışında iştirak edib

⇦ Əvvəli səh.1

Bildirildi ki, eyni vaxtda 1600 şagirdin təhsil ala biləcəyi məktəb-lisey bütün inventarla təchiz edilib. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir təhsil ocağı 65 sinif otağından ibarətdir. Bundan başqa, binada fizika, kimya, biologiya laboratoriyaları, informatika, texnologiya, hərbi təlim, tibb, əmək təlimi, STEAM otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

Məktəb-liseyin həyətyanı sahəsi abadlaşdırılıb, yaşıllıq işləri görülüb.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri avadanlıqla təchizatı gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almalarına şərait yaradır. Məktəb infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.

# Samuxda Sərkar kənd uşaq musiqi məktəbinin yeni binası istifadəyə verilib

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samuxda Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Sərkar kənd musiqi məktəbi 2002-ci ildən 1935-ci ildə inşa olunmuş kolxoza aid birmərtəbəli tikilidə fəaliyyət göstərib. Məktəbin binası ötən müddət ərzində köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Üç yüz şagird yerlik yeni məktəbin inşasına Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin iyulunda başlanılıb. Tikinti işləri həmin ilin noyabrında yekunlaşıb.

Məktəbin ümumi ərazisi 0,5 hektar, üçmərtəbəli korpusun sahəsi isə 2500 kvadratmetrdir. Bina 8 ballıq zəlzələyə davamlıdır.

Məktəb binasında 29 dərs otağı, orkestr, xor və tibb otaqları, qarderob, kitabxana, yeməkxana və akt zalı var. Təhsil ocağı zəruri mebel, avadanlıq və əyani vəsaitlə tam təchiz edilib. Binanın daxilində və ərazidə videomüşahidə kameraları quraşdırılıb. Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Prezident İlham Əliyevə Heydər Əliyev Fondu tərəfindən Samux rayonunun Sərkar kəndində görülmüş digər işlər barədə də məlumat verildi.

Qeyd edildi ki, burada yeni salınmış park istifadəyə verilib. Parkın ərazisində yaşıllıq zonası salınıb, uşaq əyləncə və idman meydançası quraşdırılıb. Açıq havada idmanla məşğul olmaq üçün əlverişli imkan yaradılıb, ərazidə müxtəlif trenajorlar qoyulub. Heydər Əliyev Fondunun dəstəyi ilə Sərkar kəndində 6 min nəfərə yaxın sakinə xidmət göstərəcək yeni tibb məntəqəsi də fəaliyyətə başlayıb. Həkim otağı, sarğı otağı və texniki otaqdan ibarət olan tibb məntəqəsi zəruri tibbi avadanlıqla təmin edilib.

Prezident İlham Əliyevə məlumat verildi ki, hazırda Samux şəhərində Heydər Əliyev Fondu tərəfindən 3 saylı körpələr evi-uşaq bağçası üçün də yeni bina inşa olunur.

Xatırladaq ki, Heydər Əliyev Fondu Samux rayonunda bu günədək bir sıra layihələr həyata keçirib. Fond tərəfindən Sərkar kəndində 800 şagird yerlik tam orta məktəb və körpələr evi-uşaq bağçası yenidən inşa edilərək 2020-ci ildə istifadəyə verilib. Eləcə də həmin il rayonun Ziyadlı kəndində 523 şagird yerlik orta məktəb əsaslı təmir olunub, körpələr evi-uşaq bağçası üçün bina inşa edilib.





# Prezident İlham Əliyev Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin rektoru Hafiz Paşayev dövlətimizin başçısına Qazax Müəllimlər Seminariyasının tarixi və Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Qazax Müəllimlər Seminariyasının tarixi 1876-cı ildə Qoridə yaradılmış Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır. Ümumilikdə 250 azərbaycanlı, o cümlədən Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Nəriman Nərimanov, Suleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli Qori Seminariyasını bitirib.

1918-ci ildə çar rejiminin dağılmasından sonra Zaqafqaziya Müəllimlər Seminariyası parçalanıb və onun Azərbaycan bölməsinin bazasında Qazax Müəllimlər Seminariyası yaradılıb. Azərbaycan bölməsinin Qoridən Azərbaycana köçürülməsini Firidun bəy Köçərli həyata keçirib. Qazax Müəllimlər Seminariyasının təntənəli açılışı qazaxlı Məşədi İbrahimin seminariyaya hədiyyə etdiyi evdə 1918-ci il noyabrın 10-da baş tutub.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1999-cu ildə Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinin keçirilməsi haqqında göstəriş verib və bu məqsədlə təşkil olunmuş ümumrespublika elmi-praktik konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il noyabrın 3-də Qazax Müəllimlər Seminariyasının 100, 2013-cü il fevralın 14-də isə Firidun bəy Köçərlinin 150 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb.

ADA Universiteti Seminariyanın tarixi binasının və onun maarifçi missiyasının bərpası təşəbbüsü ilə çıxış edib. 2021-ci ilin oktyabrında başlanılan bərpa işlərinə Heydər Əliyev Fondu, Azərbaycan Sahibkarlar Konfederasiyası, Amerika Azərbaycan Cəmiyyəti cəlb olunub. Seminariya binasının tarixi əhəmiyyətli obyekt olduğu nəzərə alınaraq, bərpa işləri xüsusi yanaşma ilə aparılıb. Cari il yanvarın 26-da Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində Firidun bəy Köçərlinin 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Qeyd olundu ki, Qazax Müəllimlər Seminariyasının tarixi binasında 2022-ci ilin oktyabrından ADA Universiteti Qazax Mərkəzi fəaliyyət göstərir. 2022-2023-cü tədris ilindən Mərkəzdə təhsillə bağlı iki magistr proqramı həyata keçirilir. Təhsil üzrə menecment, təlim və tədrisin təşkili metodikası üzrə proqramlarda 33 tələbə magistr dərəcəsi almaq üçün tədrisə cəlb olunub və birinci kursu bitirib. 2023-2024-cü tədris ilindən Qazax Mərkəzində bu ixtisaslarla yanaşı, dövlət idarəetməsi magistr proqramı tədris olunacaq. Yeni dərs ilindən bu üç ixtisasa 94 tələbə qəbul edilib. Beləliklə, Mərkəzdə ümumilikdə 127 tələbə təhsil alacaq.

Qeyd olundu ki, ADA Universiteti tərəfindən 2022-ci ildən etibarən müəllimlər üçün "Bir müəllimin manifesti" birillik üçmərhələli ixtisasartırma proqramı həyata keçirilir. Proqram çərçivəsində bölgələrdən müsahibə yolu ilə seçilmiş müəllim və direktorlar birinci mərhələdə Qazax Mərkəzində, ikinci mərhələdə ADA Universitetində, üçüncü mərhələdə isə ADA Vaşinqton Mərkəzində tədrisə cəlb olunurlar. Bu proqram vasitəsilə ötən il 38, bu il isə 20 müəllim və məktəb direktoru ixtisasartırmaya cəlb edilib. Proqramın ilk 38 iştirakçısı arasından 4 nəfər seçilərək ADA Universitetinin Qazax Mərkəzində əməkdaş olaraq fəaliyyətə başlayıb. Bu proqramın əsas məqsədi seçilmiş təhsil işçilərini gücləndirilmiş ingilis dili dərslərinə cəlb etmək, inkişaf etmiş ölkələrin təhsil sistemi ilə yaxından tanış olmaq məqsədilə Amerika məktəbləri ilə əyani təcrübə əlaqəsi yaratmaqdır.

Gələcəkdə ADA Universiteti tərəfindən Qazax Mərkəzində 10-11-ci siniflərin təhsil alacağı müasir tipli Yeni Məktəbin qurulması, bir neçə bakalavr ixtisasının açılması və kollecin təsis edilməsi nəzərdə tutulur.

Hazırda Mərkəzdə fəaliyyət göstərən magistr proqramlarının tədrisinə ADA Universitetinin müəllim və professor heyəti cəlb olunub. Onlar mütəmadi olaraq Qazax şəhərinə ezam edilirlər. Bu məqsədlə Mərkəzin tədris kompleksində Universitet tərəfindən Müəllimlər Evi tikilir. Tikintisi başa çatmaqda olan Müəllimlər Evi ADA Universitetinin Mərkəzdə çalışan bölgələrdən olan daimi əməkdaşları və ezam edilən müəllim heyəti üçün nəzərdə tutulub.

Məlumat verildi ki, Mərkəzin nəzdində elmi-tədqiqat şöbəsinin fəaliyyəti və müxtəlif tipli təhsil və mədəniyyət yönlü beynəlxalq tədbirlərin təşkili planlaşdırılır. Bu fəaliyyət çərçivəsində 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin ərəb əlifbasından latın qrafikasına transliterasiyası həyata keçirilir.

ADA Qazax Mərkəzinin tədris kompleksinə daxil olan XIX əsrə aid yerli əhəmiyyətli tarixi İsrafil Ağa hamamının təmirindən sonra onun daxilində Qazax xalçaçılıq məktəbi nümunələrindən ibarət muzeyin və rəsm dərnəyinin açılması nəzərdə tutulur. Bura, həmçinin kiçik həcmli musiqili ədəbi-mədəni tədbirlərin keçirilməsi üçün ideal məkandır.

# Nazir müavini İƏT-in Təhsil İnstitutunun Himayəçilər Şurasının iclasında iştirak edib

Azərbaycanda təhsil sahəsində aparılan islahatlar və müsbət nəticələr barədə iclas iştirakçıları məlumatlandırılıb




Avqustun 5-də elm və təhsil nazirinin müavini İdris İsayev Türkiyənin İstanbul şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təhsil İnstitutunun Himayəçilər Şurasının dördüncü iclasında iştirak edib.

Tədbirdə Türkiyənin milli təhsil naziri Yusuf Tekin, Pakistanın federal təhsil və peşə təlimi naziri Rana Tanvir Hussain, İƏT-in Təhsil İnstitutunun prezidenti Mehmet Akif Kireççi, Özbəkistanın məktəbəqədər və məktəb təhsili nazirinin müavini Usman Şarifxocayev iştirak ediblər. İran İslam, Qırğız və Tacikistan respublikalarını təmsil edən nümayəndələr tədbirə virtual şəkildə qoşulublar.

İclas zamanı çıxış edən İdris İsayev “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın müəyyən etdiyi hədəflərə uyğun olaraq təhsil sahəsində aparılan islahatlar və onların müsbət nəticələri barədə məlumat verib. Nazir müavini həmçinin İƏT-ə üzv dövlətlərlə təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivlərindən danışıb. Tədbirdə İƏT-in Təhsil İnstitutunun Azərbaycan Respublikasının Təhsil İnstitutu və yerli ali təhsil müəssisələri ilə təhsilin müxtəlif istiqamətləri üzrə həyata keçirdiyi fəaliyyətlərin əhəmiyyəti vurğulanıb.

Tədbir zamanı Mehmet Akif Kireççi növbəti 3 il müddətinə İƏT-in Təhsil İnstitutunun prezidenti seçilib. İclasda həmçinin İƏT-in Təhsil İnstitutunun fəaliyyətinin gücləndirilməsi məqsədilə 2023—2025-ci illər üçün İş Planı qəbul olunub.

# Vətən müharibəsi şəhidlərinin xanımları ilə növbəti görüş



Vətən müharibəsi şəhidlərinin xanımları ilə növbəti görüş Təhsilin İnkişafı Fondunun təşəbbüsü və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə keçirilib. Bakı şəhərində baş tutan görüşün əsas mövzusu həm şəhid övladlarının təhsilinə, həm də şəhid xanımlarının təhsilin müxtəlif pillələrində təhsil almalarına dəstək göstərilməsi olmuşdur.

# Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alacaq gənclər

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənələri günümüzdə də uğurla davam etdirilir, insan kapitalının inkişafı ilə bağlı dövlət strategiyaları və dövlət proqramları reallaşdırılır. Bu baxımdan dövlət başçısı İlham Əliyevin 28 fevral 2022-ci il tarixli sərəncamına əsasən təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” ölkənin ehtiyac duyduğu prioritet sahələr üzrə kadr potensialının qarşılanması məqsədini daşıyır və hər il 400 nəfər olmaqla ümumilikdə 2000 nəfərin xaricdə təhsilinin maliyyələşdirilməsini hədəf götürür. Ali təhsilin bakalavriat səviyyəsində təhsil almaq üçün seçimdə beynəlxalq fənn olimpiadaları qaliblərinə üstünlük verilməsi Dövlət Proqramı çərçivəsində istedadlı gənclərin dünyanın qabaqcıl universitetlərindən məzun olaraq ölkəmizin gələcək inkişafına əlavə dəyər yaratmalarını təşviq edir. Ali təhsilin magistratura səviyyəsində intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli gənclərə və yüksək texnologiyalara əsaslanan ixtisaslara üstünlük verilməsi isə əmək bazarında müasir bacarıqlara malik ixtisaslı kadrların sayını artıracaqdır.


Məhəmməd Əfəndiyev


Tural Abdulla


Ayla Əliyeva


Şəhla Abbaszadə

Qeyd edək ki, avqustun 2-də “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”-nın növbəti iştirakçıları müəyyən olunub. Belə ki, 2023-2024-cü tədris ili üçün həyata keçirilən sənəd qəbulunun növbəti nəticələri üzrə 200 namizəd müvafiq seçim qaydalarına aid meyarlara uyğun olaraq Dövlət Proqramı iştirakçısı adını qazanıb.

Proqram iştirakçıları sırasında cari ildə beynəlxalq reytinq sistemlərində yalnız universitetlər üzrə ilk onluqda yer almış ali təhsil müəssisələri üzrə 5 nəfər “Harvard University”, 1 nəfər “Massachusetts Institute of Technology”, 2 nəfər “Yale University”, 6 nəfər “Imperial College London”, 5 nəfər “University College London” və 1 nəfər “National University of Singapore”dan qəbul alıb.

Məlumat üçün bildirək ki, iyulun 14-də 2023-2024-cü tədris ili üzrə Dövlət Proqramı iştirakçısı adını qazanmış ilkin 134 nəfərin siyahısı barədə ictimaiyyətə məlumat verilib.

Dövlət Proqramından yararlanan təqaüdçü gənclərimizlə yaxından tanış olduq, təcrübə və təəssüratlarını dinlədik. Gənclərimizin uğur hekayələrini oxucularımızla bölüşürük.

## “Dünyanın ən nüfuzlu universitetinin tələbəsi olmaq çox qürurvericidir”

*ABŞ-ın Harvard Universitetində təhsil alacaq Məhəmməd Əfəndiyev:* “Mən 2011-ci ildə Bakı Özəl Türk Liseyinin məzunu olmuşam. Bilkent Universitetində “Biznesin idarəedilməsi” ixtisası üzrə bakalavr təhsili almışam və ən yüksək nəticə ilə təhsilimi başa vurmuşam. Eyni zamanda universitetdə Bilkent Azərbaycan Cəmiyyətini yaratmışam və 250-dən çox azərbaycanlı ilə bərabər fəaliyyət göstərərək ölkəmizi xarici tələbələrə tanıtmışıq. Universiteti bitirdikdən sonra 3 ildən çox müddətdə Türkiyənin ən böyük şirkətlərindən biri olan “Rönesans Holding”də maliyyəçi işləmişəm. 2020-ci ildə Bakıya qayıdaraq “McKinsey & Company” şirkətində məsləhətçi vəzifəsində çalışmağa başlamışam.

Bir vətəndaş olaraq Dövlət Proqramından yararlanan gənc kimi Elm və Təhsil Nazirliyinin fəaliyyətini çox yüksək dəyərləndirirəm. Mən Harvard Universitetinin magistratura səviyyəsində “Biznesin idarəedilməsi” (MBA) ixtisası üzrə təhsil alacağam. MBA hazırda dünyada ən nüfuzlu proqramlardan biri hesab edilir. Təhsilimi bitirdikdən sonra Vətənə dönüb Azərbaycanda, ilk növbədə, səhiyyənin idarəedilməsinin inkişafı ilə bağlı müəyyən layihələr həyata keçirmək arzusundayam. Bu layihəyə icbari tibbi sığortanın təkmilləşdirilməsi və səhiyyə sisteminin rəqəmsallaşdırılması kimi əhəmiyyətli proqramlar daxildir. Eyni zamanda sosial fəaliyyətlərlə cəmiyyətimizə fayda verən layihələr üzərində işləməyi planlaşdırıram. Harvard kimi dünyanın ən nüfuzlu universitetinin tələbəsi olmaq çox qürurverici duyğudur. Mən ölkəmi dünyanın ən nüfuzlu universitetində belə bir platformada təmsil etdiyim üçün qürur duyuram. Ən böyük arzum orada insanlarda Azərbaycanla bağlı müsbət təəssüratlar yaratmaq və özümü yüksək səviyyəli peşəkar mütəxəssis kimi yetişdirərək ölkəmə fayda verməkdir”.

## “Əminəm ki, ölkəmizin gələcək inkişafına öz töhfəmi verəcəyəm”

*Türkiyə Respublikasının Sabancı Universitetində təhsil alacaq Tural Abdulla:* “Mən 2006-cı ildə Gəncə şəhərində anadan olsam da valideynlərimin işi ilə əlaqədar tez-tez köçmək məcburiyyətində qaldığımız üçün təhsilimi müxtəlif orta məktəblərdə almışam. Birinci sinfə Bakı şəhəri C.Cabbarlı adına 187 nömrəli tam orta məktəbdə getsəm də, daha sonra təhsilimi 67 nömrəli tam orta məktəbdə davam etdirib, son olaraq bu il Avropa Azərbaycan Məktəbindən məzun olmuşam. Oxuduğum hər bir məktəb dünyagörüşümün formalaşmasında və əldə etdiyim uğurlarda xüsusi rol oynayıb. İndiyə kimi yadımdadır, 2015-ci ilin aprel ayında “Azərbaycan müəllimi” qəzetinə öz nailiyyətim barədə müsahibə vermişdim. Həmin vaxt mən ABŞ-da keçirilən Şagirdlərin 2-ci Film Festivalında uğur qazanaraq xüsusi fəxri fərmana layiq görülmüşdüm. Dəqiq və təbiət elmlərinə marağım sayəsində 2016-cı ilin 21mart tarixində dünya məktəbliləri arasında onlayn riyaziyyat yarışmasında (Mathletics) qızıl medal qazanmışdım. Bundan əlavə 2019, 2020, 2022-ci illərdə Bakıda keçirilən beynəlxalq “Dünya Alimlər Kuboku” Olimpiadasında iştirak edərək müxtəlif kateqoriyalar üzrə ümumilikdə 9 qızıl, 8 gümüş medal, 3 kubok qazanmışam. Bu il mən ABŞ, Böyük Britaniya, Türkiyə və sair ölkələrin nüfuzlu universitetlərindən mühəndislik və kompüter elmləri ixtisasları üzrə qəbullar almışam. Bu universitetlərin bəziləri mənə 25-75 faizlər arası təqaüd təklif etmələrinə baxmayaraq, xaricdə təhsil üzrə Dövlət Proqramına müraciət edərək tam təqaüd əldə etdim. Proqramın şərtlərinə uyğun olaraq Türkiyənin Sabancı Universitetində “Kompüter elmləri və mühəndisliyi” ixtisası üzrə təhsil almağı üstün tutdum. Mən bu il bakalavr üzrə Dövlət Proqramının qalibi olmuş 80 nəfərdən biri olduğum üçün çox sevinirəm. Əminəm ki, Dövlət Proqramının mənim təhsilimə yaratdığı bu gözəl imkan sayəsində ölkəmizin gələcək inkişafına öz töhfəmi verəcəyəm”.

## “Davamlı inkişafımıza dəstək olmaq mənim ən böyük hədəflərimdəndir”

*ABŞ-ın Harvard Universitetində təhsil alacaq Ayla Əliyeva:* “Mən Bakı Oksford Məktəbinin məzunuyam. Bununla yanaşı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) “AZMUN” proqramı çərçivəsində Bakı Beynəlxalq BMT Simulyasiyalarında baş katib və komitə sədri, Avropa Gənclər Parlamentində (AGP) Milli Koordinasiya departamentinin üzvü, təşkilatçısı, komitə sədri, Bakı Oksford Məktəbinin Tələbə Şurasının prezidenti, məktəbin Musiqili Teatr klubunun təsisçisi vəzifələrini icra etmişəm. Dövlət Proqramı mənim kimi gənclərin intellektual, şəxsi inkişafı üçün imkan yaradıb və gələcək nəslin cəmiyyətdə fəal rol almağında böyük bir dəstəkçidir. Bu proqramın bir hissəsi olmağım üçün çox şadam və qəbul olunduğum universitetin mədəni və akademik mübadiləsində iştirak etməyə hazıram.

Mən dünyanın ən nüfuzlu ali təhsil ocağı hesab edilən Harvard Universitetində “Dövlət idarəetməsi” ixtisası üzrə təhsil alacağam. Harvard Universitetindən çox yüksək gözləntilərim var. Fərqli ölkələri təmsil edən müxtəlif mədəniyyətlərlə tanış olub akademik imkanlardan yararlanmağa yaxşı mənada həyəcanlıyam. Cəmiyyətimizə fayda gətirmək və davamlı inkişafımıza dəstək olmaq mənim ən böyük hədəflərimdən biri olmasını əminliklə deyə bilərəm”.

## “Gələcəkdə ölkəmizdə müəllim kimi fəaliyyətimi davam etdirmək istəyirəm”

*Böyük Britaniyanın Qlazqo Universitetində təhsil alacaq Şəhla Abbaszadə:* “Mən 2008-2019-cu illərdə Lənkəran şəhəri V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb-liseydə təhsil almışam. 2015-ci ildə Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyinin keçirdiyi olimpiadada Rus dili və ədəbiyyatı üzrə 3-cü yerə layiq görülmüşəm. 2019-2023-cü illərdə Azərbaycan Dillər Universitetində “İngilis dili müəllimliyi” ixtisası üzrə bakalavr təhsili almışam və universiteti fərqlənmə ilə bitirmişəm. Azərbaycan Dillər Universitetində oxuduğum müddətdə Bakı Amerika Mərkəzində könüllü olaraq müəllim kimi işləmişəm. Bununla yanaşı Landau Məktəbində təcrübə keçmişəm.

Uşaqlıqdan xarici ölkələrin nüfuzlu universitetlərinin birində təhsil almaq ən böyük arzum olub. Eşidəndə ki, dövlət gənclərə belə bir fürsət yaradır, mən də iştirak etmək qərarına gəldim. Müsahibədən uğurla keçdiyimi biləndə çox sevindim və qürurlandım. Artıq sentyabrda Qlazqo Universitetində “İnklüziv təhsil: araşdırma, siyasət və təcrübə” ixtisası üzrə təhsil alacağam. Xaricdəki təhsilimi uğurla başa vurub ölkəmizdə müəllim kimi fəaliyyətimi davam etdirmək istəyirəm”.

**Lamiyə ƏLİMƏRDANOVA**

# İkili diplom proqramının tələbələri qlobal şirkətlərdə işləmək şansı əldə edəcəklər

**İNHA Universitetinin İnformasiya texnologiyaları departamentinin dosenti Yeongkyo Seo Bakı Mühəndislik Universiteti (BMU) və Koreya Respublikasının İNHA Universitetinin birgə icra etdiyi tam dövlət təqaüdlü ikili dövlət proqramı ilə bağlı fikirlərini bölüşüb.**

**Proqramın üstünlüklərindən bəhs edən koreyalı müəllim İkili Diplom Proqramı (İDP) tələbələrinin qlobal şirkətlərdə çalışmaq şansı qazandıqlarını vurğulayıb: “Siz bu proqramda 3 il Bakıda, BMU-da, sonra isə orijinal, daha təkmil kurslar əldə etmək üçün 1 il Koreyada təhsil alırsınız. İDP proqramında mənim məqsədim rəqəmsal sistemlərin layihələndirilməsini tərtib etməyi akademik və sənaye səviyyəsində öyrətməkdir. Burada yaxşı öyrənsəniz, rəqəmsal sistemlərin layihələndirilməsi üzrə çox yaxşı mühəndis ola bilərsiniz və “Samsunq”, “SK hynix”, “Apple” kimi qlobal şirkətlərdə işləmək üçün daha yaxşı şans əldə edə bilərsiniz”.**

**BMU-da İNHA Universitetinin professor-müəllim heyəti tərəfindən aparılan 3 həftəlik “Yay məktəbi”nə toxunan dosent qeyd edib ki, tədris etdiyi kurs rəqəmsal sistemlərin layihələndirilməsinin əsaslarını, o cümlədən məntiq layihələndirilməsinin ətraflı izahı ilə məşğuldur.**

# Ege Universitetinin rektoru azərbaycanlı tələbələrlə görüşüb

**Türkiyənin Ege Universitetinin rektoru professor Necdet Budak ADAU-EGE beynəlxalq ikili diplom proqramı çərçivəsində təhsillərinin son illərini Ege Universitetində alacaq Azərbaycan Dövlət Aqrar Universitetinin “Aqronomluq”, “Bitki mühafizəsi” və “İqtisadiyyat” ixtisaslarından 40 nəfər tələbəni qəbul edib.**

**Rektor N.Budak ADAU-nun rektoru vəzifəsini icra edən Zəfər Qurbanovla onlayn söhbət əsnasında qardaş Azərbaycandan gələn tələbələrin yüksək səviyyədə təhsil almaları üçün universitetdə bütün imkanların yaradıldığını, həmçinin onların öz ixtisasları üzrə mükəmməl təhsil alaraq vətənlərinə qayıdacaqlarına əminliyini ifadə edib.**

**Görüşün sonunda ADAU tələbələrinə Ege Universitetinin tələbə biletləri və hədiyyələr təqdim olunub.**

2023 – "Heydər Əliyev İli"

# Ümumi təhsil xalqın mentalitetidir

Azərbaycan Respublikasının, Azərbaycan xalqının XX əsrdə böyük nailiyyətlərindən biri də budur ki, bizdə yaxşı orta təhsil sistemi yaranmışdır və orta məktəblərimiz gənclərə yaxşı təhsil verir, onları tərbiyələndirir, gələcək müstəqil həyata hazırlayır, ali təhsil almağın bünövrəsini qoyur. Ümumi təhsil xalqın mentalitetidir, dünya xalqları ilə müqayisə olunacağı səviyyədir. İndi dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, bu gün yuxarı siniflərə girən şagirdlər, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün, gələcəkdə respublikamızı inkişaf etmiş bir ölkəyə çevirmək üçün təhsil almalıdırlar, bilik toplamalıdırlar, özlərini cəmiyyətdə fəaliyyətə hazırlamalıdırlar.



# Azərbaycanda ümumi təhsilin inkişafı

Azərbaycan təhsilinin intibahı tariximizdə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəldiyi dövrə təsadüf edir. Ulu Öndərin ən böyük xidmətlərindən biri Azərbaycan təhsil sisteminin yerli kadrlar hesabına milliləşdirilməsi idi.

Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyət illəri xalqımızın tarixində dönüş nöqtəsi olub, ölkəmizdə ilk növbədə, təhsil, mədəniyyət, incəsənət, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi, quruculuq və tərəqqi dövrü kimi xarakterizə edilir.

Ulu Öndər XX əsrin 70-ci illərinin başlanğıcından etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük bir şəxsiyyətdir. Heydər Əliyev uzaqgörən və müdrik siyasəti sayəsində kadr potensialı yaratmaqla milli təhsil quruculuğu istiqamətində sonrakı uğurlarının bünövrəsini qoymuşdur.

Azərbaycan təhsilinin özəyini təşkil edən ümumi təhsilin qarşısında XX əsrin 60-cı illərinin sonlarında yeni vəzifə- ümumi icbari orta təhsilə keçmək məsələsi qoyuldu, lakin bu qərarın verilməsi dövründə icbari təhsilin bu pilləsinin maddi-texniki və kadr təminatı zəif idi. Çünki təhsildə çalışan müəllimlərin yalnız 45 faizi ali təhsilli idi. Məktəblərin sayı az idi. Mövcud infrastruktur dövrün tələblərinə cavab vermirdi. Belə bir dövrdə, belə bir şəraitdə respublikamıza rəhbər seçilən Heydər Əliyev ölkədə sosial-iqtisadi və mədəni yüksəlişə gedən yolun məhz təhsildən, maarifdən keçdiyini dərindən hiss edərək, əsas diqqəti bu sahəyə yönəltdi.

Respublikada bu sahənin inkişafına nail olmaq məqsədilə dövlət başçısının imzaladığı "Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" (1972); "Kənd ümumtəhsil məktəbinin iş şəraitini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" (1973) qərarlar mühüm rol oynadı. Qərarların qəbulundan sonra onların dönmədən həyata keçirilməsi təmin edildi ki, bu da qısa bir vaxtda ümumi təhsilin inkişafında əsaslı kəmiyyət və keyfiyyət dəyişmələri ilə nəticələndi.

XX əsr Azərbaycan tarixinin böyük nailiyyətlərindən biri ölkəmizdə müasir tipli tədris-tərbiyə müəssisələrinin formalaşması sayıla bilər, bu sahənin hərtərəfli inkişafı Heydər Əliyevin çoxşaxəli fəaliyyəti ilə bağlıdır.

Heydər Əliyevin təhsil sahəsində sovet dövründəki fəaliyyəti, əsasən, aşağıdakı istiqamətləri əhatə edirdi:

Azərbaycan SSR-in maarif sisteminin ştat heyəti yerli kadrlar hesabına milliləşdirilir, respublikanın hər yerində, xüsusən kənd yerlərində müasir tipli məktəblər inşa edilir, müəllimlərə qayğı göstərilir, müəllimlərin işə təyinat sistemi genişləndirilir, təyinatla kənd yerlərində işləyən müəllimlərə mənzil kirayə haqqı verilir və digər güzəştlər edilir, gənclərin ali təhsil almalarına şərait yaradılır, kənd yerlərini mütəxəssislərlə təmin etmək məqsədilə gənclər ali məktəblərə müsabiqədənkənar qəbul etdirilir, ali təhsil ocaqlarının sayı artırılır, onların maddi-texniki bazası gücləndirilir, Azərbaycan təhsilinin qabaqcıl dünya ölkələrinin təhsil sistemi ilə əlaqəsini qurmaq və genişləndirmək üçün səylər göstərilirdi.

Heydər Əliyev, ilk növbədə, Azərbaycan SSR Maarif Nazirliyinin tərkibini milliləşdirməyə uğurla nail oldu. Yüksəkixtisaslı kadrlara tələbat artırıldı. Azərbaycanlı təhsil işçilərinin nazirlik sistemində işə qəbulu gücləndirildi. İşdə nöqsanlara yol verənlər tutduqları vəzifələrdən azad edilirdilər. Xalq maarifi müəssisələrinin saxlanılmasına ayrılan xərclər 1969-cu ildən başlayaraq hər il daim artırılırdı.

1969-cu ilin sentyabrında respublikamızda 120 yeni məktəbin açılışı olmuşdur. 1969-cu ildən 1982-ci ilə qədər olan dövrdə Azərbaycanda məktəb binalarının tikilməsi və uşaqların məktəblərə cəlb edilməsi daim yüksələn xətlə inkişaf etmişdir. Beləliklə, Heydər Əliyev hakimiyyətə gəldikdən az sonra Azərbaycanda olan orta məktəblərin ümumi sayı 1130-a çatdırıldı. Həmin tədris ilinin başlanğıcında 1mln. 130 min şagird dərsə başlamışdır.

Azərbaycan Respublikasında 1971-ci ildə 1905 səkkizillik, 1303 orta məktəb fəaliyyət göstərirdi. 1972-ci il sentyabr ayında verilən məlumata görə, 1382 orta və 1843 səkkizillik məktəb öz şagirdlərini qəbul etmişdi. Göstərdiyimiz rəqəmlər əvvəlki illərlə müqayisədə xalq maarifi sahəsində böyük sıçrayış demək idi. Təhsildə belə inkişafa respublika rəhbərliyinin xalq maarifinə, ümumi təhsilin inkişafına bilavasitə qayğısı nəticəsində nail olunmuşdur.

Azərbaycanlı qızların məktəbə cəlb edilməsinə xüsusi diqqət yetirilməsi nəticəsində təhsil sistemində təhsilli qadınların xüsusi çəkisi sürətlə artırdı. Azərbaycan qadınları respublikanın ictimai-siyasi və təsərrüfat həyatında mühüm rol oynayırdılar. Artıq 1978-ci ildə Azərbaycanda 770 min ali və orta təhsilli qadın var idi.

Təhsilin keyfiyyətini yüksəltmək üçün respublika rəhbəri Heydər Əliyev həm kadr siyasətini, həm də yeni məktəb binalarının tikintisini diqqət mərkəzində saxlayırdı. Heydər Əliyev bu məsələləri Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin büro iclaslarında hərtərəfli, geniş müzakirə obyektinə çevirir və bununla bağlı qəti qərarlar qəbul edirdi.

Heydər Əliyevin sədrliyi ilə 1973-cü il avqustun 28-də keçirilən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosunun iclasında respublika ərazisində yeni məktəb binalarının tikintisinə dair qərar qəbul edildi. Bu qərara əsasən 1977 və 1980-ci illərdə 276 min şagird yeri olan müasir tipli məktəb binaları tikilməli idi.

1969-1978-ci illərdə Azərbaycanda orta məktəblərin sayı artmış, ucqar kəndlərdə kənd məktəblərinin sayı 680-dən 1264-ə çatdırılmışdır. 1979-cu ilin siyahıya alınmasına görə şəhər əhalisinin savadlılığı 100%, kənd əhalisinin savadlılığı isə 99% təşkil edirdi.

1970-1980-ci illərdə respublikada aparılan güclü məktəb tikintisi ikinci növbədə oxuyanlar üzrə göstəricinin yaxşılaşdırılmasına təkan verdi. Belə ki, 1970-ci ildə Azərbaycanda 28300 şagird yeri olan 90 ümumtəhsil məktəb binası tikilmişdisə, 1975-ci ildə 48200 nəfərlik 100 məktəb binası inşa edilmişdi. Nəticədə şagirdlərin 2-ci növbədə oxumaq göstəricisi 1978-ci ildə 30,8%-ə, 1980-cı ildə 28,1%-ə, nəhayət, 1985-ci ildə isə 24,9%-ə çatdırıldı ki, bununla da şagirdlərin 75,1%-nin 1-ci növbədə təhsil almaq imkanı əldə edildi. Heydər Əliyev Azərbaycan müəllimlərinin XI qurultayındakı çıxışında qeyd edir ki, 1979, 1980-1981-ci illərdə hər il Azərbaycanda 35 min şagirdin oxuması üçün şəraiti olan məktəb binaları tikilmişdi. Bu da hər il üçün 50-60 məktəb binasının tikintisi demək idi. Həmin illərdə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 350 mindən çox şagird yeri olan 849 məktəb binası tikilib istifadəyə verilmişdi. Nəticədə ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayı 1970-ci ildəki 368 mindən 1980-ci ilin əvvəllərində 710 min nəfərədək, məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1969-1982-ci illərdə 1600-dən 1875-ə, orada tərbiyə alanların sayı isə 110 mindən 147 minə qədər artmışdı.

Aparılan genişmiqyaslı işlər nəticəsində 1979-cu ildə ümumtəhsil məktəblərinin şəbəkəsi 1965-ci illə müqayisədə üç dəfədən çox artaraq 765-dən 2117-yə qədər yüksəlmişdir. Bu dövrdə 1145 ibtidai məktəb orta məktəbə çevrilmişdir. Ümumi təhsil sahəsində aparılan kardinal işlərdən biri təhsilin məzmununu özündə əks etdirən dərslik məsələsi olmuşdur. 1978-ci ildən ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklə təminatı pulsuz həyata keçirilmişdir.

Məktəblərdə ayrı-ayrı fənlər üzrə fənn kabinələrinin təminatı bu illərdə əsaslı şəkildə tam başa çatdı. Məktəblərin texniki və elmi-metodik vasitələrlə təminatı da xeyli yüksəlmişdir.

Heydər Əliyev azərbaycanlıların harada yaşadıqlarından asılı olmayaraq, əhalinin aşağı və orta deyil, yüksək təbəqəsində mövqe tutmasını arzulayırdı. O belə hesab edirdi ki, azərbaycanlı mütəxəssislər Azərbaycanın milli sərvətidir.

Azərbaycan rəhbərinin bilavasitə gərgin fəaliyyəti nəticəsində respublikamız savadlılar diyarına çevrilmişdi. Təhsil sahəsində gərgin əməyinin nəticəsini görən Heydər Əliyev deyirdi: "Azərbaycanda ən böyük nailiyyət ondan ibarətdir ki, bizdə bu gün savadsız adam yoxdur, ölkəmizdə hər hansı bir bölgəyə, rayona, kəndə, hətta hansı bir dağ kəndinə getsəniz, orada savadsız adam tapa bilməzsiniz. Azərbaycanda xalqın ümumi təhsil səviyyəsinin, mədəni səviyyənin yüksəlməsi XX əsrdə özünü çox bariz şəkildə göstərmişdir".

Heydər Əliyev sonralar ötən əsrin 70-ci illərinin təhlilini verərkən qeyd edirdi ki, ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq, Azərbaycan xalqının bir neçə nəsli təhsil almış, böyümüş, yüksək səviyyələrə çatmış, böyük elm və mədəniyyətə sahib olmuşlar. Bunların hamısı xalqımızın milli nailiyyətidir və indi bizim Azərbaycan Respublikasının intellektual potensialını təşkil edir.

Böyük iftixar hissi ilə bildiririk ki, istər Azərbaycandan kənar, istərsə də respublika daxilində (C.Naxçıvanski adına Hərbi Lisey) milli hərbi kadrların hazırlanması sahəsində Heydər Əliyevin xidmətləri misilsizdir. Məhz 1970-1980-ci illərdə Azərbaycanda yaradılan hərbi məktəblər, eləcə də respublikadan kənarda təhsil almış milli kadrlar hesabına bu gün müstəqil Azərbaycanın ordu quruculuğu və milli hərbi sistemi formalaşmış, o illərdə yaradılan təməl üzərində qurulmuşdur. C.Naxçıvanski adına hərbi məktəb bu gün də fəaliyyətini davam etdirir, hər il yüzlərlə gənc bu hərbi məktəbi bitirib, ali hərbi məktəbdə öz təhsillərini davam etdirirlər. Bu məktəbin məzunları həm Birinci Qarabağ müharibəsində, həm də İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində igidlik göstərmişlər. 2003-cü il aprelin 21-də Heydər Əliyev Sarayında C.Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyində çıxış edən Ümummilli Lider demişdir: "Sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax bu cür baxacağam".

1978-ci ildə Azərbaycan müəllimlərinin IV qurultayı keçirildi. Qurultayda Heydər Əliyev geniş nitq söylədi. Ulu Öndərin nitqində Azərbaycan məktəbinin keçdiyi tarixi inkişaf yolu, mövcud vəziyyəti dərindən təhlil edilir, perspektivləri və qarşıda duran vəzifələrin həyata keçirilmə yolları göstərilirdi. Heydər Əliyev Azərbaycan xalqının inkişaf etməsində və tərəqqisində məktəb və təhsilin roluna xüsusi əhəmiyyət verdiyini qeyd edirdi.

Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inkişafında misilsiz xidməti olan Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə bu sahəyə diqqət və qayğısını əsirgəməmiş, daim milli elmimizin və təhsilimizin himayədarı kimi çıxış etmişdir. Heydər Əliyev elmin, təhsilin inkişafına milli zərurət kimi yanaşır, xalqın intellektual səviyyəsinin artırılmasının ən vacib vəzifə olduğunu qeyd edirdi.

Ulu Öndər deyirdi ki, Azərbaycanda təhsil XX əsrdə çox sürətlə inkişaf etmişdir və təhsilə cəlb olunmayan uşaq, gənc, insan qalmamışdır. Bu, bizim böyük nailiyyətimizdir ki, xalqımız tam savadlıdır, tam təhsillidir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, həqiqi yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara mükəmməl yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan iqtisadiyyatının inkişafı, elmin inkişafı, təhsilin inkişafı, insanlarımızın rifah halı o qədər də yaxşı olacaqdır. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidirlər. Ona görə də təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır.

Ulu Öndər Heydər Əliyev ümumrespublika tədbirlərində daim vurğulayırdı ki, həm orta məktəblərdə təhsilin keyfiyyəti yüksəldilməlidir, həm də təhsil ocaqlarında gənclərin təhsil almasına qayğı artırılmalıdır. Gənclərin daha da yaxşı oxuması, təhsil alması üçün tələbkarlıq artırılmalıdır.

Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi bir mərhələ bu gün haqlı olaraq Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü kimi qiymətləndirilir.

Heydər Əliyevin irsində böyüyən nəslin fiziki mənəvi və əqli tərbiyəsi məsələləri də geniş yer tutur. Ümummilli Liderimiz hesab edirdi ki, Azərbaycanın milli tərbiyə Konsepsiyasında bu cəhətlər öz geniş əksini tapmalıdır. Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsi işinə bilavasitə xidmət etdiyi önə çəkilirdi.

Heydər Əliyev irsində vətən sevgisi, azərbaycançılıq, xalq, millət sevgisi, dil sevgisi, milli mədəniyyət sevgisi xüsusi yer tutur. Heydər Əliyevin şəxsi nümunəsi və həyat təcrübəsi xalqına, ölkəsinə, dövlətinə əsl sədaqətlilik örnəyidir.

Ümummilli Lider deyirdi: "Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik. Vətənpərvər gənclərin yetişdirilməsi təkcə təhsilin məzmununa deyil, məhz mənəviyyat məsələsinə, mənəvi tərbiyə işininin məzmununa daxildir. Deməli, hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması milli tərbiyə konsepsiyasının, eləcə də milli ideoloji siyasətin əsas tərkib hissəsi kimi nəzərə alınmalıdır. Hər bir azərbaycanlının yaşadığı ölkədən, vətəndaşı olduğu dövlətdən asılı olmayaraq, dünyanın harasında azərbaycanlı varsa, onda azərbaycançılıq hissi özünü göstərməlidir. Vətənpərvərlik hissini, milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır".

Heydər Əliyev uzaqgörənliklə milli tərbiyənin məzmununa gənc nəslin milli vətənpərvərlik anlayışını da daxil etmiş və onun məzmununu müəyyənləşdirmişdir. Gənclərimizin milli ruhda, milli-ənənəvi dəyərlər əsasında tərbiyələnməsini vacib sayan Heydər Əliyev göstərir ki, gənclərimiz tariximizi yaxşı bilməlidirlər, tarixini bilməyən gənc vətənpərvər ola bilməz.

**Natiq AXUNDOV,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim,*
*ARTİ-nin "Təlimin nəzəriyyəsi və metodikası" şöbəsinin baş mütəxəssisi*

# Bakı Avrasiya Universiteti

aşağıdakı kafedralarda kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Riyaziyyat və informasiya texnologiyaları (İKT) kafedrası**
**İqtisadiyyat kafedrası**
**Biznes və menecment kafedrası**
**Xarici dil və ədəbiyyat kafedrası**
**Nəzəri dilçilik və türk dilləri**

Müvafiq kafedranın profilinə uyğun yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları müsabiqədə iştirak edə bilərlər.

Müsabiqə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları" və "Bakı Avrasiya Universitetində dekan, kafedra müdiri, dekan müavini və professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq aparılır.

Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidir:

- rektorun adına ərizə;
- kadrlar uçotunun şəxsi vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil haqqında diplomun notariat qaydasında təsdiq olunmuş surəti;
- elmi dərəcə və elmi ad haqqında sənədlərin notariat qaydasında təsdiq olunmuş surəti;
- dərc olunmuş elmi və tədris-metodik işlərin müvafiq qaydada təsdiq edilmiş siyahısı;
- namizədin kafedranın inkişafı ilə bağlı platforması

İddiaçıların tədris prosesinin idarə edilməsi, elmi-pedaqoji fəaliyyəti, tədris prosesində yeni pedaqoji və informasiya-kommunikasiya texnologiyalarının, innovativ təlim üsullarının tətbiqi sahəsində əldə etdiyi təcrübə və nailiyyətləri, ixtisasının artırılması ilə bağlı digər sənədlər onların istəyi ilə əlavə olaraq təqdim edilə bilər.

Ali təhsil və elmi dərəcə haqqında sənədlər başqa ölkədə verildiyi halda ekvivalentlik haqqında müvafiq sənəd təqdim edilməlidir.

Sənədlərin qəbulu elanın dərc edildiyi tarixdən 1 (bir) ay müddətinə aparılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər ərizə ilə birlikdə Universitetin *info@baau.edu.az* elektron ünvanına təqdim olunmalıdır.

**Ünvan:** AZ 1110, Bakı şəhəri,
akademik Həsən Əliyev küçəsi, 135 A

**Əlavə məlumat üçün:** +994 12564 63 67;
+99412564 63 65 (daxili nömrə 108);
*info@baau.edu.az*

**REKTORLUQ**

# Bakı Avrasiya Universiteti

2023/2024-cü tədris ilində aşağıdakı ixtisaslar üzrə təkrar ali təhsil almaq üçün sənəd qəbulu

## ELAN EDİR:

| İxtisaslar | Təhsilalma forması |
|---|---|
| Beynəlxalq münasibətlər | əyani/qiyabi |
| Biznesin idarəedilməsi | əyani/qiyabi |
| Dövlət və bələdiyyə idarəetməsi | əyani |
| İqtisadiyyat | əyani/qiyabi |
| Maliyyə | əyani/qiyabi |
| Marketinq | əyani/qiyabi |
| Mühasibat | əyani/qiyabi |
| İnformasiya texnologiyaları | əyani/qiyabi |
| Sosial iş | əyani/qiyabi |
| Turizm işinin təşkili | əyani/qiyabi |
| Filologiya (dil və ədəbiyyat göstərilməklə) | əyani/qiyabi |
| Tərcümə (dillər üzrə) | əyani |

Sənədlərin qəbulu elektron qaydada *https://portal.edu.az/* platformasında "Əlavə təhsilə elektron sənəd qəbulu xidməti" vasitəsilə 2023-cü il avqustun 31-dək aparılır.

Təkrar ali təhsil yalnız ödənişli əsaslarla, əyani və qiyabi təhsilalma forması üzrə həyata keçirilir. Tədris Azərbaycan dilində aparılır.

Əlavə təhsil almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- rektorun adına ərizə;
- ali təhsil haqqında sənədin (diplomun və ona əlavənin) notarial qaydada təsdiq olunmuş surəti;
- 3x4 sm ölçüdə 4 ədəd fotoşəkil;
- şəxsiyyət vəsiqəsinin surəti;
- əmək kitabçasının surəti (işləyənlər üçün);

1993-cü ildən sonra xarici ölkə ali təhsil müəssisələrindən məzun olanlar aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnaməni təqdim etməlidirlər.

Namizədlər tələb olunan sənədləri elektron qaydada təqdim etdikdən sonra müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil hüququnu qazanır.

Təhsilini müvəffəqiyyətlə başa vuranlara müvafiq ixtisas üzrə bakalavr peşə-ixtisas dərəcəsi və ali təhsil haqqında dövlət nümunəli bakalavr diplomu verilir.

**Ünvan:** Bakı şəhəri,
akademik Həsən Əliyev küçəsi, 135 A

**Elektron poçt:** info@baau.edu.az

**REKTORLUQ**




# ADNSU tələbəsi qızıl medal qazanıb

İngiltərənin Mançester şəhərində keçirilən dünya çempionatında Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) tələbəsi Vəli İsrafilov qızıl medala layiq görülüb. Milli Paralimpiya Komitəsinin üzgüçülük idman növü üzrə milli komandasının üzvü olan V.İsrafilov 100 metr məsafəyə brass növündə 1:07.08 saniyə nəticə göstərərək fəxri kürsünün ən yüksək pilləsində yer alıb. O, həmçinin Paris-2024 XVII Yay Paralimpiya Oyunlarına da vəsiqə qazanıb.

ADNSU-nun IV kurs tələbəsi V.İsrafilov Energetika fakültəsinin "Elektroenergetika mühəndisliyi" ixtisası üzrə təhsilini davam etdirir. O, Uşaq Paralimpiya hərəkatının üzvü olub və peşəkar karyerasına orada imza atıb. V.İsrafilov dünya birincisi olmaqla yanaşı, bir çox beynəlxalq yarışlarda da uğur qazanıb.

**Sifai SƏFƏROVA**

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu,
Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5667 **Sifariş** 2050

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Şərur rayon** Alışar kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Seyid Mirəli İbrahim oğluna verilmiş 318086 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xınalı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılov Elxan Müşfiq oğluna verilmiş A-423433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 18 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Şahverdiyeva Solmaz Səlim qızına verilmiş E-290973 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Həmzəyeva Gülşən Süleyman qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 11 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyev Murad Aydın oğluna verilmiş B-405441 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İsmayılova Gülnar Vaqif qızına verilmiş B-006431 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İsmayılova Günel Vaqif qızına verilmiş B-006430 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Nağıyev Sərxan Nürəddin oğluna verilmiş C-018993 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Kəlbəhüseynli kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Ağayev Asim Nəsimi oğluna verilmiş E-224783 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Nuri Teymur Firudin oğluna verilmiş A-297186 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Məlikli kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Əhmədova (Ələkbərova) Qumru Əlihüseyn qızına verilmiş A-198588 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı Peşə Məktəbi** tərəfindən 2011-ci ildə İsmayılova Sevinc Asif qızına verilmiş 010281 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 16 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılzadə Rza Vasif oğluna verilmiş A-394657 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Bədəlov Dilqəm Rizvan oğluna verilmiş A-089178 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 201 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Məmmədov Müşfiq Tahir oğluna verilmiş E-277528 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 223 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Kazımlı Nicat Sahib oğluna verilmiş A-308848 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**"Ankara məktəbi" məktəb-liseyi** 2021-ci ildə bitirmiş Nəbiyeva Emiliya Ədalət qızına verilmiş E-374339 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 242 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Ağayeva Günel Eyvaz qızına verilmiş B-513820 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 173 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Səfərəli Anar Səxavət oğluna verilmiş E-354764 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialı** tərəfindən 2015-ci ildə Məmmədova Rövşanə Sadiq qızına verilmiş A-065766 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lerik şəhər** 2 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Muradov Emil Qardaş oğluna verilmiş A-676131 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Muğanlı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədova Fərqanə Şahin qızına verilmiş B-456242 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Neftçi Qurban adına 288 nömrəli tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Tağıyeva (Məmmədova) Nəzakət Elşən qızına verilmiş B-514743 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Bum qəsəbə tam orta məktəbi 1991-ci ildə bitirmiş Babayeva (Məhəmmədova) Kifayət Davud qızına verilmiş A-093989 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər 3** nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Camalov Ülvi Xəqani oğluna verilmiş C-308892 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 7 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Kılıç Bahar Bağır qızına verilmiş A-319473 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Məmmədov Vüsal Naib oğluna verilmiş E-423478 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Maşxan kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş İbrahimova Ulduz Kərimağa qızına verilmiş B-072498 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Teymur Müskanlı kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Hüseynov Rafiq Hüseyn oğluna verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 298 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Kazımova Günay Qəzənfər qızına verilmiş 698942 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2016-cı ildə Mirzəyev Niyazi Azər oğluna verilmiş A-093676 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 1992-ci ildə Kərimova Sevil Elman qızına verilmiş ЦВ-830614 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əlizadə Rakif Rauf oğluna verilmiş E-146075 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2016-cı ildə Abışov Pərviz Bəhram oğluna verilmiş AA-082733 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi** (Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci) tərəfindən 1978-ci ildə Əliyev Əli Vəli oğluna verilmiş Ю-003070 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 219 nömrəli evdə tam orta məktəbi 2008-ci ildə bitirmiş Məmmədova Aynur Katib qızına verilmiş B-531292 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Orucov Murad Sücaət oğluna verilmiş A-205568 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu** (Bakı Slavyan Universiteti) tərəfindən 1999-cu ildə Əliyeva Aynur Kərim qızına verilmiş A-045374 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**9 nömrəli Bakı Peşə Liseyini** 2016-cı ildə bitirmiş Əhmədov Elmin Vidadi oğluna verilmiş A-492539 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Bəydəmirov Əşrəf Fariz oğluna verilmiş C-764052 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2006-cı ildə Timiryazev İsmayıl Fazil oğluna verilmiş B-036574 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Cəngəmiran kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Mirzəyev Fikrət Bəxtiyar oğluna verilmiş E-158973 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm Cırdaxan kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Məmmədov Fərmayıl Natiq oğluna verilmiş E-171402 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Xanallar kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Əliyeva Səlimə Fərhad qızına verilmiş E-248117 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm qəsəbə tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyeva (Quliyeva) Hava Sahib qızına verilmiş A-412050 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyi 2019-cu ildə bitirmiş Namazlı Fərid Sakit oğluna verilmiş E-247424 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qədimqala kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Həsənova (Bayramova) Elnurə Ələddin qızına verilmiş B-076671 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Şiştəpə kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Hacıyeva (Aslanova) Pərvanə Qurban qızına verilmiş B-196398 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Şiştəpə kənd tam orta məktəbin VIII sinfini 1993-cü ildə bitirmiş Hacıyeva Süsən Qulu qızına verilmiş 115526 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çinarlı qəsəbə tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Salmanova Aygün Rəşid qızına verilmiş 473390 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş İsmayılov Oskar Rafael oğluna verilmiş E-462371 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İctimai-Siyasi Universiteti** tərəfindən 2005-ci ildə Abdullayev Ələsgər Kamil oğluna verilmiş B-049164 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.



# Suda boğulma təhlükəsinin qarşısını necə almalı?

**Elm və təhsil nazirinin müvafiq əmrinə əsasən təhsil müəssisələrində Xəzər dənizi və su hövzələrində boğulma təhlükəsinə qarşı maarifləndirmə tədbirləri keçirilir**

Suda boğulma təsadüfi ölüm hallarının əsas səbəblərindən biridir. Statistikaya əsasən, hər il dünyada 150000-dən çox bu növ ölüm hallarına rast gəlinir.

Kişilər arasında boğulma riski qadınlarla müqayisədə 6 dəfə çoxdur. Dəniz sahili, göllər, çaylar, kanallar, suvarma qurğuları suda boğulma hadisələrinin baş verdiyi əsas yerlərdir.

Bu halların qarşısının alınması ilə bağlı insanlar arasında mütəmadi maarifləndirmə işləri aparılmalıdır.

Ekspertlər hesab edirlər ki, boğulma hallarının əsas səbəblərindən biri insanların ehtiyatsızlığıdır. Belə ki, onların hava şəraitini düzgün seçməməsi, qanunsuz çimərliklərə üz tutmaları boğulma faktlarını artırır.

Yay mövsümündə, xüsusilə, rayonlarda bəzən insanlar təhlükəsizlik qaydalarına riayət etmədən su kanallarında çimirlər. Onların əksəriyyəti isə uşaqlar və azyaşlılardır. Təəssüf ki, təhlükəsizlik tədbirlərinə əhəmiyyət verilməməsi boğulma halları ilə nəticələnir.

Əlbəttə ki, bu məsələdə valideynlərin məsuliyyəti böyükdür. Valideynlər uşaqları nəzarətsiz buraxmamalıdırlar. Onların kənarda olması bədbəxt hadisələri qaçılmaz edir.

Nəzərə almalıyıq ki, Azərbaycan Xəzər dənizi sahilində yerləşir, eyni zamanda, ölkəmizdə göllər, çaylar var. Bu səbəbdən də məktəblərdə şagirdlər arasında üzgüçülüyə marağın artırılması ilə bağlı maarifləndirici söhbətlərin aparılması daha məqsədəuyğundur.

Məsələn, bəzi Avropa ölkələrində üzgüçülük məcburi dərs kimi tədris olunur. Uşaqlar arasında bu idman növünü vərdiş halına gətirmək, onlarda üzgüçülük bacarıqlarını erkən yaşlardan formalaşdırmaq onların həm fiziki sağlamlıqları, həm də təhlükəsizlikləri üçün vacibdir. Ən azından suda necə davranmaq lazım olduğunu biləcəklər.

Çox zaman valideyn nəzarətindən kənar qalan uşaqlar ehtiyatsızlıqdan su kanallarına düşərək boğulurlar. Ölümlə nəticələnən bu halların baş verməməsi üçün su kanallarının ətrafına sədd çəkilməsi və nəzarətin gücləndirilməsi vacibdir.

Bizdə əksəriyyət su kanalları layihələri əsasən açıq tipli, beton kanallardır. Suvarma kanallarının kənarlarına beton piltələr döşənir, kənarları ot örtüyü olduğundan sürüşkən olur. Ona görə də, kanallarda çimən insanlar boğulma təhlükəsi ilə üzləşirlər və bəzən ölüm qaçılmaz olur. Həmin su kanallarında üzmək çox təhlükəlidir.

Regionlarda yaşayan sakinlər bu cür su hövzələrində dincələrkən, üzərkən düzgün yer seçməli, təhlükəsizlik qaydalarına riayət etməlidirlər. Çünki ani bir diqqətsizlik ölümlə nəticələnə bilər.

Su kanallarında, o cümlədən, çaylarda, göllərdə batan şəxslərlə bağlı hər il çoxlu xəbər oxuyuruq. Belə boğulma halları adətən eyni ərazilərdə təkrarlanır. Onların qarşısını almaq üçün maarifləndirmə ilə bərabər, təhlükəsizlik tədbirlərinin artırılması da vacibdir. Boğulmaların təkrarlandığı hissələrdə nəzarətçilərin qoyulması, kanalın məhz o hissəsinə sədd çəkilməsi, “Üzmək qadağandır!” işarələrinin artırılması və s. addımlar atmaq olar. Ümumi konsepsiyanın olması vacibdir ki, bu cür su hövzələrində təhlükələri minimuma endirmək mümkün olsun.

Azyaşlıların su kanallarında batması halları isə daha ciddi məsələdir. Çünki bu məqamda birbaşa valideyn diqqətsizliyi böyük rol oynayır. Böyüklərin nəzarətindən kənar qalan uşaqlar daha tez-tez suda boğulma təhlükəsi ilə qarşılaşırlar. Valideynlər yay mövsümündə övladlarına su kanallarında üzməyin təhlükəsini davamlı izah etməli, onları bu fikirdən çəkindirməlidirlər.

Çox təəssüf ki, uşaqlarla bərabər elə böyüklər özləri də qaydaları, qadağaları bildikləri halda buna riayət etmirlər. Su kanallarında, göllərdə çimirlər, hətta spirtli içki qəbul edərək günün qaranlıq saatlarında suya girirlər. Belə hallarda bədbəxt hadisələrin olması qaçılmazdır. Ona görə də, insanlarımızı qaydalara riayət etməyə, həyatlarına qarşı məsuliyyətli olmağa səsləyirik.

# Müəllim olmaq istəyənlər

## MİQ-in müsahibə mərhələsi başladı








⇦ Əvvəli səh.1

### Gərgin hazırlıqdan sonra...

Həmin gün müsahibəyə 753 nəfər dəvət olunub. Onlardan biri - Kubra Bayramova komissiya qarşısına çıxmağa hazırlaşır. Həyəcanı gözlərindən oxunur: “Əslində, test imtahanından daha çox bal toplaya bilərdim. Daha yüksək nəticə gözlədiyim üçün çoxları kimi mən də imtahandan çıxanda ağlayırdım. Çünki ilboyu ancaq çalışmışam”.

O, Tərtər rayonundandır, amma Bakıda yaşayır. 2018-ci ildə Sumqayıt Dövlət Universitetini “Azərbaycan dili və ədəbiyyat müəllimliyi” ixtisası üzrə bitirib. Müəllimlərin işə qəbulu üzrə müsabiqədə ilk iştirakı da deyil, ilk uğuru da: “Bir il müddətli müqavilə ilə Lerik rayonunun Çaylı kəndində işlədim. Pandemiya dövrü olduğu üçün yoldaşım da mənimlə gedə bildi. O, öz işini onlayn görürdü”.

K.Bayramova 64.25 balla test imtahanından uğurla keçənlərdəndir. Bakı şəhəri 234 nömrəli tam orta məktəbdə vakant yer tutub. Seçdiyi məktəblə tanışdır: “Buzovna qəsəbəsində yaşayıram, məktəb də ordadır. Çox yaxşı məktəbdir”.

### “Nəticənin uğurlu olacağına inanıram”

Fərid Musayev uğurla çıxdığına inanır. O, Bakı Dövlət Universitetin 2017-ci il məzunudur. Amma ilk dəfə müəllimlərin işə qəbulu müsabiqəsinə qatılıb. 61 bal toplayaraq vakansiya seçmək hüququ qazanıb. Seçdiyi vakansiyalar arasında Şirvan şəhər 16 nömrəli tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat fənnini tədris etmək şansı əldə etdiyindən müsahibə mərhələsinə dəvət olunub: “Müsahibədə əsas nitqə fikir verirlər, axıcı danışmaq lazımdır. Psixoloji suallar verdilər. Sinfi necə idarə etmək, şagirdlərlə necə ünsiyyət qurmaq lazım olduğunu soruşdular. Məncə, yaxşı keçdi. Nəticənin uğurlu olacağına inanıram”.

Müsahibə başlayanda həyəcanlanıb: “İlk saniyələrdə çox həyəcanlı idim, sonradan həyəcanım keçdi. Suallara cavab verdim, ancaq cavab tapmaqda çətinlik çəkdiyim nüanslar da oldu”.

Seçdiyi vakansiyaya yerləşdiriləcəyi təqdirdə onu necə məktəb gözləyir? F.Musayev deyir ki, işləyəcəyi məktəblə tanışdır: “Məktəbdə dəfələrlə olmuşam. Həm yaşayış yerimə yaxındır, həm də yaxşı məktəbdir. Gələcək üçün yaxşı tramplindir”.

Var gücü ilə çalışacaq ki, yaxşı müəllim olsun: “Müəllim də şagirdlə bərabər oxumalı, daim axtarışda olmalıdır”.

### Həyəcan davam edir

İlk gün informatika, musiqi, rus dili, fransız dili, texnologiya, Azərbaycan dili və ədəbiyyat fənləri üzrə müsahibələr təşkil olundu.

Müsahibələr avqustun 18-dək davam edəcək.

**Ruhiyyə DAŞSALAHLI**

# Dövlət qayğısı, yeni imkan

## Təhsil tələbə kreditindən yüksək texniki peşə təhsil səviyyəsi ilə yanaşı, texniki peşə təhsili səviyyəsində təhsil alan tələbələr də yararlanacaqlar

⇦ Əvvəli səh.1

Bu dəyişikliyə görə peşə təhsili pilləsinin texniki peşə səviyyəsində təhsil alanlar da artıq ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura (rezidentura) səviyyələrində, o cümlədən orta ixtisas təhsili pilləsində təhsil alanlar kimi təhsil krediti almaq hüququna malikdirlər. Belə ki, birinci tədris ilinin ilk semestri (yarımili) üçün peşə təhsili pilləsinin texniki peşə təhsili səviyyəsində attestata müvafiq fənlər üzrə yazılmış yekun qiymətlərin ədədi ortasının Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olanlar, digər semestrlər (yarımillər) üçün isə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən “4” və “5” olanlar təhsil tələbə krediti üçün müraciət edə biləcəklər. Beləliklə, məhz Fondun Himayəçilik Şurası birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbələrin standart TTK almaq hüququnu müəyyən edən peşə təhsili pilləsinin texniki peşə təhsili səviyyəsində attestata müvafiq fənlər üzrə yazılmış yekun qiymətlərin ədədi ortasının minimal həddini təsdiq edir.

### Onlar üçün güzəşt də var

Məlum olduğu kimi, TTK üzrə tələbələrə ödəmə rahatlığı baxımından müəyyən güzəştlər nəzərdə tutulur. Məsələn, ÜOMG-si 71 bal və yuxarı olan (peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 71 bal və yuxarı, texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən, “4 və “5” olan) borcalana həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır. Təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan (peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 bal və yuxarı, texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən “5” olan) borcalan təhsilin normativ müddətində aldığı TTK-nın yarısının ödənişindən azad olunur.

Standart TTK üzrə isə ÜOMG-si 91 bal və yuxarı olan (peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 bal və yuxarı, texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən “5” olan) borcalana həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır.

Təhsilin normativ müddətində bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan (peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 91 bal və yuxarı, texniki peşə təhsili səviyyəsi üzrə təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə nəticəsi 5 ballıq qiymət şkalasına (2, 3, 4, 5) əsasən “5” olan) borcalan təhsilin normativ müddətində aldığı TTK-nin 25 faizi hissəsinin ödənişindən azad olunur.

### Bakıda və bölgələrdə müasir standartlara cavab verən peşə təhsili müəssisələri qurulur

“Peşə təhsil pilləsinin sürətli və dayanıqlı inkişafının şahidi oluruq”, - deyən Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru vəzifəsini icra edən, direktor müavini Ceyhun Kərəmovun fikrincə, hazırda dövlətin həyata keçirdiyi islahatların məntiqi davamı olaraq Bakıda və bölgələrdə müasir standartlara cavab verən peşə təhsili müəssisələri qurulur. Ötən illər ərzində Bakı şəhərində, Qəbələ, Bərdə kimi regionlarda ümumi tələbə tutumu 5000-ə yaxın olan müxtəlif istiqamətli, ən müasir tələblərə və beynəlxalq standartlara cavab verən peşə təhsili müəssisələri qurulub.

Müasir maddi-texniki bazaya malik müəssisələrin tikinti prosesi davam edir. Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Bu prosesdə Qarabağ regionu xüsusi yer tutur. Belə ki, Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsili müəssisəsi tikilib istifadəyə veriləcək. Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır.

### “Bu təhsil mənə gələcəklə bağlı daha böyük planlar qurmağa imkan verir”

İnfrastrukturda və tədrisin keyfiyyətində olan müsbət dəyişikliklər özünü gənclərin peşə təhsilinə artan marağında göstərir. Məsələn, Nurlanə Babayeva hazırda yüksək texniki peşə təhsili alan 1460 tələbədən, sadəcə biridir. O, əvvəlcə 18 nömrəli Bakı Dövlət Peşə Təhsil Liseyində “Bərbər-vizajist” ixtisası üzrə təhsil alıb. İlk peşə təhsilini fərqlənmə diplomu ilə bitirən Nurlanə iş tapmaqda çətinlik çəkməyib: “Sadəcə yaxşı oxumurdum, həm də təhsil aldığım müddətdə keçirilən bütün tədbirlərdə fəal iştirak edirdim. Çoxlu sertifikatlarım var. Praktikada da fəal idim və yüksək nəticələrim sayəsində işlə təmin olundum. Bir gün sosial şəbəkələrdə qarşıma çıxan məlumat diqqətimi çəkdi və maraqlandım. Yüksək texniki peşə təhsili almaqla bağlı qərarım üzərində çox düşünmədiyim qərarlardan idi. Dərhal qeydiyyatdan keçərək ixtisas seçdim. Hazırda Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində “Mehmanxana və restoran işinin təşkili və idarə edilməsi” ixtisası üzrə təhsilimi davam etdirirəm. Təhsil aldığım müddətdə bir az da müəllimlərim sayəsində ixtisasıma marağım artdı.Həm müəllimlərimdən öyrənirəm, həm də öyrəndiklərimi təcrübə keçdiyim müəssisələrdə əyani şəkildə görür, tətbiq edir, biliyimin üzərinə bilik və təcrübə əlavə edirəm”.

Tələbəliyini uğurla davam etdirən Nurlanə aldığı peşə təhsilinin onun gələcək inkişafına öz töhfəsini verəcəyinə inananlardandır: “Peşə təhsili sahəsində şərait yüksək səviyyədədir. Öyrənmək üçün hər cür şərait var. Ümumiyyətlə, bu gün əminliklə deyə bilərəm ki, peşə təhsili mənim həyatımda yaxşı mənada bir çox şeyi dəyişib. Məhz peşə təhsili sayəsində özümün bir çox keyfiyyətlərimi kəşf etməyə başlamışam. Məsələn, ilk peşə təhsili aldığım ixtisas üzrə xüsusi qabiliyyətim olduğunu liseydə oxuyarkən öyrəndim. Saç kəsimində, üz bəzəmədə xüsusi bacarığımı ustalarım qiymətləndirdikcə daha çox həvəsləndim. İstehsalat müddətində həvəsim artdı, yeniliklər etmək istəyim günü-gündən böyüdü. Qeyri-adi modellər yaratmağa, bəzəklər vurmağa, yenilik etməyə daha çox cəhdlər etdim. Çox öyrənməyə çalışmağımın nəticəsidir ki, indi başqalarının səhvlərini dərhal görürəm”.

Yüksək texniki peşə təhsilini başqa ixtisas üzrə davam etdirən N.Babayeva artıq turizm sektoruna qəti keçid edib və indi də burda ən yüksək bacarıqlara yiyələnmək niyyətindədir: “İndi də turizmə maraq göstərirəm. Marağım böyüdükcə xəyallarım da böyüyür. Hətta restoran biznesi qurmaq həvəsim belə yaranıb”.

Sadəcə bu da deyil. Nurlanənin aldığı yüksək texniki peşə təhsili onun biznes dünyasına olduğu kimi, həm də universitetə giriş “bilet”idir: “Turizm sahəsində karyera qurmaq istəyirəm. Növbəti hədəfim Azərbaycan Turizm və Menecment Universitetində bakalavr təhsili almaqdır. Gələcəkdə idarəçilikdə təmsil olunmaq, Turizm Agentliyində çalışmaq istəyirəm”.

N.Babayeva deyir ki, bütün bu arzuları burada təhsil alarkən formalaşıb: “Burada təhsil ürəyimcədir və tanışlarıma da tövsiyə edirəm. Yüksək texniki peşə təhsili almaqla həyatımın ən doğru addımını atdığımı düşünürəm. Bu təhsil mənə gələcəklə bağlı daha böyük planlar qurmağa imkan verir”.

### Peşə təhsili almaq üçün qarşıya çıxacaq yeganə problemi də dövlət həll etdi

Hazırda ölkədə 1466 nəfər yüksək texniki peşə təhsili alır. Yüksək texniki peşə təhsil səviyyəsi üzrə tələbələrin sayının 2026-cı ilə qədər 9200-ə çatdırılması planlaşdırılır. Nazirlər Kabinetinin son qərarından sonra peşə təhsili almaq istəyənlərin sayının artacağına şübhə yeri qalmır. Ümumiyyətlə, qeyd edək ki, son üç ildə peşə təhsilini seçənlərin sayı nəzərəçarpacaq şəkildə çoxalıb. Belə ki, tələbə qəbulu üzrə göstəricilər 30 faiz artaraq 2022-ci ildə 19 mini ötüb. 2026-cı ilə qədər bu göstəricinin 27 min 335-ə çatması planlaşdırılır.

Necə deyərlər, infrastruktur var, ən müasir peşə təhsil mərkəzləri bir-bir istifadəyə verilir. Maraq da var, hər gün peşə təhsilinin həyatını dəyişəcəyinə inananların sıraları genişlənir.

Peşəkarlıq yolunda maneə qalmadı. Bir o qaldı ki, portal.edu.az platformasında qeydiyyatdan keçib hərə özünə bir peşə seçsin.

**Ruhiyyə DAŞSALAHLI**